# Cənnət adamı - mələktimsal kişi

*Müqəddəs kitablar bəlli edir ki, Allah Adəmə müxtəlif növ torpaqdan surət verdi; görkəminə dünyanın bütün gözəlliklərini qatdı... Bəşər övladı (məhz) bu timsalda Adəm kimidir; yaxşı bilir, yaranışı nədirsə, sonu da odur...*

Uşaq olanda, nənəmdən eşitmişdim ki, filankəs mələkdir, aramızda insan cildində gəzir... Mən atamı da bu surətdə görmüşdüm... Ara-sıra qarşıma çıxanların, təmasa girdikdən sonra ehtiram göstərdiyim adamları da elə bu görkəmdə xarakterizə etdim...

30 ildən çoxdur tanıdığım, hər qarşılaşanda səmimi baxışlarının istisində bişdiyim, surətində bir ucalıq, bir kəhkəşan kəşf etdiyim Nüsrət Quliyev də mələktimsal surətdir, sadəcə aramızda insan cildində təcəlla edir... İlk dəfə «Azərbaycan» nəşriyyatına ayaq basanda hörmət və ehtiramına rast düşdüyüm bu fərqli insan məndə min illər əvvəlin təəssüratını oyatmışdı; elə bilmişdim, o da (atam kimi) yaşından beş era əvvəl mövcud olub. Yadımda deyil, cildləmə sexində olarkən kimsə Nüsrət müəllimin yüngül tər hormuş kölgəsini göstərib dedi ki, bu adam hamının ehtiyac duyduğu adamdır. Təəccüb etmədim, yaxşı anlayırdım ki, Allah hərdən insanlardan bir neçəsini mələk cildində xəlq edir.

Nüsrət müəllimi 30 ildir dəyişməz surətdə görürəm. O, «Azərbaycan» nəşriyyatında (bəlkə də) yeganə insandır ki, hamı rəğbət göstərir. Heç inanmağım gəlmir ki, qapısını döyənə «yox» desin. Sonrakı illərdə özüm də bunu canlı müşahidə etdim. Hansı otaqda adı çəkildisə, yanaqlara bakirə təbəssüm, dodaqlara hörmət gülüşü qondu...

Nüsrət müəllim dünya ağırlığında yükün altında duruş gətirib. Bir dəfə olsun løngər vurmayıb. Bu gün də o, öz surətində cəmiyyətə və dövlətə töhfə verir. Çox sadə, həlim təvazökar, lakin tədbirli insandır. Əyilməz şəxsiyyətlər, vüqarlı dağlar qədər məğrur insanlar onun səmimiyyəti qarşısında daim mum kimi olublar. Bu gün də mən Nüsrət müəllimi avand ucalıqların halal mərtəbələrində görürəm. Onun barmaqlarının qabarı zəhmət dağları qədər parıltılıdır.

Çoxlarının sadəcə texniki işçi kimi tanıdığı Nüsrət Quliyev əslində, kompyuter texnologiyasının mahir bilicilərindəndir; ölkədə onun kimi kadrlara çox böyük ehtiyac var. Heç kimi dana bilməz ki, «Azərbaycan» nəşriyyatının əsas ağırlığı (bugünün özündə də) onun çiyinləri üzərindədir.



Nüsrət müəllimi mələk-insan hesab etdiyimdən, illərlə onun surətində yad görkəmlər axtarışında oldum; düşündüm, nəsə taparam, ancaq zaman öz məzmununa uyğun (bəlkə də) min dəfə isbata yetirdi ki, onun töküldüyü kütlə xalis, vücudu bütöv, mayası halaldır. Bu tərz insan yad görkəmlərə mübtəla olmaz. Necə ki, 30 ildən çoxdur bir atmosferdə, bir yaraşıqdadır.

60 ilin Nüsrəti İbrahim, Davud, Yusif timsallıdır; mətindir, mübarizdir, haqqını yedirtməz, haqq yeməz. (Hətta) onu «xam» hesab edən adama (belə) könül yarası vurmaz. Tək bir baxışı ilə kölgə vücudlara, pas bağlamış surətlərə həyatı parametrlərinə qədər anladar. Hər kim bu mənadan bir məzmun çıxardar, qazanar, hər kim kor kimi baxar, elə kor da qalar.

Nüsrət müəllim - Allahın mələk insanı, səni sadə dildə, elə sənin öz xarakterində təbrik edirəm, 60 yaşın mübarək!

Məzmunlu obrazı ilə minlərin sevimlisinə çevrilmiş əziz insan, nə xoşbəxtəm ki, səni təbrik etmək şansım var!

Mənim «Lövhi-Məhfuzum»da adı «Cənnət adamı - mələktimsal kişi» kimi işıq verən uca şəxsiyyət, doğum günün mübarək!

Hikmət Məlikzadə